Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Yanvar 2025

www.ereforms.gov.az
info@ereforms.gov.az

## BÜTÜN BU NƏQLİYYAT MƏSƏLƏLƏRİNİ BİR MƏRKƏZDƏ CƏMLƏŞDİRMƏK ÜÇÜN MƏNİM QƏRARIMLA BU YAXINLARDA YENİ QURUM - AZCON QURUMU YARADILDI

Yeni Dəniz Ticarət Limanının birinci fazasının yükaşırma qabiliyyəti 15 milyon ton nəzərdə tutulurdu. Ancaq biz görürük ki, yüklərin həcmi daha çox olacaq. Artıq göstəriş verildi və biz bu ildən işə başlayırıq. Beynəlxalq məsləhətçilər cəlb edildi ki, yeni layihə hazırlansın, təqdim olunsun. Biz limanın imkanlarını 25 milyon tona çatdırmalıyıq və ola bilsin, bu da bizə yetməyəcək. Çünki Şərq-Qərb nəqliyyat dəhlizi üzrə yüklərin həcmi o qədər sürətlə artır ki, biz bu işləri də bu artıma görə etməliyik. Bütün bu nəqliyyat məsələlərini bir mərkəzdə cəmləşdirmək üçün mənim qərarımla bu yaxınlarda yeni qurum - AZCON qurumu yaradıldı, hansı ki, bütün bu əlaqələndirmə və perspektiv inkişaf planını, o cümlədən sərmayə qoyuluşunu - bütün bu məsələləri nəzərə alacaqdır.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 28 yanvar 2025-cü il tarixində nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədən**

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat — səh. 17

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2024-cü ilin yanvar-dekabr ayları ərzində qeyri-neft-qaz ixracı 3,4 milyard ABŞ dolları təşkil edib.

## Cari ilin yanvar-dekabr ayları ərzində yeyinti məhsullarının ixracı 1.03 milyard ABŞ dolları olub.

2024-cü ilin yanvar-dekabr ayları ərzində Azərbaycanın qeyri-neft-qaz ixracı 2023-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,3% artaraq 3,4 milyard ABŞ dolları təşkil edib. 2024-cü ilin yanvar-dekabr ayları ərzində yeyinti məhsullarının ixracı 11,3% artaraq 1,03 milyard ABŞ dollarına bərabər olub.

2024-cü ilin 12 ayı ərzində ixrac olunan şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 62,4% artaraq 38,5 milyon ABŞ dolları, pambıq lifi 45,2% artaraq 178,2 milyon ABŞ dolları, bitki mənşəli yağlar və piylər 32,8% artaraq 28,9 milyon ABŞ dolları, qiymətli metallar 29,2% artaraq 215,3 milyon ABŞ dolları, kimya sənayesi məhsulları 18,3% artaraq 293,7 milyon ABŞ dolları, spirtli və spirtsiz içkilər 14,3% artaraq 68,8 milyon ABŞ dolları, çay 1,6% artaraq 6 milyon ABŞ dolları, qara metallar 1,9% artaraq 48,2 milyon ABŞ dolları, alüminium və ondan hazırlanan məmulatlar 1% artaraq 197,2 milyon ABŞ dolları təşkil edib.

Ötən ilin yanvar-dekabr ayları ərzində aqrar məhsulların ixracı 2,8% artaraq 789,4 milyon ABŞ dolları, aqrar-sənaye məhsullarının ixracı 57,3% artaraq 316,1 milyon ABŞ dollarına bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 14,1% artaraq 1,11 milyard ABŞ dolları təşkil edib.

2024-cü ilin yanvar-dekabr aylarında ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (211,8 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pambıq mahlıcı (177.1 milyon ABŞ dolları) ikinci, tomat (175.4 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşıb.

2024-cü ilin yanvar-dekabr ayları ərzində Rusiya Federasiyasına 1.2 milyard ABŞ dolları, Türkiyəyə 542,3 milyon ABŞ dolları, Gürcüstana 272,4 milyon ABŞ dolları, İsveçrəyə 220,4 milyon ABŞ dolları, ABŞ-a isə 134,7 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2024-cü ilin dekabr ayında ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında xurma (27,1 milyon ABŞ dolları) birinci, qızıl (25,2 milyon ABŞ dolları) ikinci, tomat (pomidor) (20,1 milyon ABŞ dolları) isə üçüncü olub.

Ötən ilin dekabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (94.2 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (35.2 milyon ABŞ dolları) ikinci, İsveçrə (26.8 milyon ABŞ dolları) üçüncü olub.



# 2024-CÜ İLİN YANVAR-DEKABR AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2025 İXRAC İCMALI yanvar



# 2024-CÜ İLİN DEKABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2025
İXRAC İCMALI
yanvar

2023 | 2024

2023: **314.1 mln**

2024: **265.9 mln**



Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN DEKABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)





# 2024-CÜ İLİN YANVAR-DEKABR AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2023-cü ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

2025 İXRAC İCMALI yanvar

Aqrar məhsullar

Aqrar-sənaye məhsulları

1,11 mlrd $

2023/2024
+14,1%



2023/2024
+2,8%

789,4 mln $

316,1 mln $

2023/2024
+57,3%

# 2024-CÜ İLİN YANVAR-DEKABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI yanvar



# 2024-CÜ İLİN DEKABR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2024-CÜ İLİN YANVAR-DEKABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2024 | 2023 |
|---|---|---|
| Qızıl | 211,8 | 162,8 |
| Pambıq mahlıcı | 177,1 | 122,4 |
| Tomat (pomidor) | 175,4 | 162 |
| Meşə fındığı | 126,7 | 119,6 |
| Karbamid | 126,2 | 83 |
| Xurma | 113,7 | 127,2 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 108,2 | 76,1 |
| Metanol (metil spirti) | 104,4 | 89,9 |
| İlkin formalı propilen sopolimerləri (PE) | 96,8 | 93,6 |

# 2024-CÜ İLİN YANVAR-DEKABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2024-CÜ İLİN DEKABR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI yanvar

| | 2024 | 2023 |
|---|---|---|
| Xurma | 27,1 | 35,8 |
| Qızıl | 25,2 | 19,5 |
| Tomat (pomidor) | 20,1 | 21,3 |
| Karbamid | 13,5 | 10,5 |
| Meşə fındığı | 12,8 | 11,2 |
| Metanol (metil spirti) | 9,5 | 8,4 |
| Kərə yağı | 8,7 | 1,6 |
| Alma | 8,7 | 7,1 |
| Pambıq mahlıcı | 8,2 | 11,3 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2024-cü ilin yanvar-dekabr ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: “MKT İstehsalat Kommersiya” MMC, “Silk Vey Vest Aviaşirkəti” MMC, “ASG Business Aviation” MMC, “Baku Steel Company” QSC, Süleymanova Göhər Süleyman qızı, “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, “Azərbaycan Şəkər İstehsalat Birliyi” MMC, "Tabaterra" QSC, “Khan-El” MMC, “Atena” Məhdud Məsuliyyətli Cəmiyyəti.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: “SOCAR Polymer” MMC, “AzerGold” QSC, “Azəralüminium” MMC, “Azərenerji” ASC, “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “Azərbaycan Hava Yolları” QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti, “Suraxanı Maşınqayırma zavodu” ASC, “Azəripək” MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2024-CÜ İLİN YANVAR-DEKABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2024-CÜ İLİN YANVAR-DEKABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## (ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025
İXRAC İCMALI
yanvar



3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2024-cü ilin yanvar-dekabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) 18,5 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2024-cü ilin yanvar-dekabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 50 ölkəsinə **18,5 milyon** ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **73%**-ni təşkil edib. 2024-cü ilin dekabr ayında isə “Azərkosmos” dünyanın 40 ölkəsinə **1,6 milyon** ABŞ dolları dəyərində xidmət ixrac edib.

2024-cü ilin yanvar-dekabr ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə **6 milyon** ABŞ dolları ilə Birləşmiş Krallıq, **3,8 milyon** ABŞ dolları ilə Lüksemburq, **855,5 min** ABŞ dolları ilə BƏƏ, **683,8 min** ABŞ dolları ilə Pakistan, 654,5 min ABŞ dolları ilə Türkiyə qərarlaşıb.

# 2024-CÜ İLİN YANVAR-DEKABR AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 18,5 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 6 mln $ | Birləşmiş Krallıq |
| 3,8 mln $ | Lüksemburq |
| 855,5 min $ | BƏƏ |
| 683,8 min $ | Pakistan |
| 654,5 min $ | Türkiyə |

## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi





İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi
Center for Analysis of Economic Reforms and Communication
Центр Анализа Экономических Реформ и Коммуникаций


Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən “İxrac İcmalı” jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.



Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az


www.ereforms.gov.az

/iqtisadiislahat